# Anti-Mənəviyyat Fəlsəfələrin Yanlışlığı

**Meysam Javadnia**[1]

## Abstrakt

XX əsr bəşəriyyət tarixində mənəviyyat və din əleyhinə olan fəlsəfi cərəyanların ən güclü dövrü olmuşdur. Pozitivizm kimi anti-din fəlsəfələr, kommunizm kimi anti-mənəviyyat siyasi sistemlər milyonlarla insanı öz təsiri altına almışdı. Lakin XX əsrin sonları bu sistemlərin məğlubiyyətinə və mənəviyyatın yenidən dirçəlişinə şahidlik etdi. Bu məqalədə anti-mənəviyyat fəlsəfələrin (xüsusilə pozitivizm) yanlışlığı elmi-fəlsəfi baxımdan təhlil edilir, kommunizm kimi anti-din sistemlərin çökmə səbəbləri araşdırılır. Həmçinin müasir dövrdə insanların mənəviyyata artan marağının səbəbləri, Qərbin bu hərəkatı istiqamətləndirmək səyləri, rüşeym və uşaq tərbiyəsində mənəvi dəyərlərin ötürülməsi, multifilm və kompüter oyunları vasitəsilə ideoloji təsir mexanizmləri təhlil edilir. "Heri Pater" dastanları və Hollivud filmləri nümunəsində Qərbin sekulyar mənəviyyat yaratmaq cəhdləri tənqidi şəkildə dəyərləndirilir.

**Açar sözlər:** Pozitivizm, anti-mənəviyyat, kommunizm, sekulyar mənəviyyat, tərbiyə, mədəni imperializm, Hollivud, Qərb mədəniyyəti

---

[1] - Əl-Mustafa Beynəlxalq Virtual Universitetinin müəllimi, Qum, İran / Mjedalat7@gmail.com

## Giriş

Müasir dünyada mənəviyyat və din məsələləri getdikcə daha çox aktuallıq qazanır. XX əsrdə anti-mənəviyyat fəlsəfələrin və sistemlərin yüksəlişi və sonrakı çöküşü, bəşəriyyətin mənəvi ehtiyaclarının nə qədər dərin olduğunu göstərdi. Pozitivizm kimi fəlsəfi cərəyanlar elmi dünyagörüşünü mütləqləşdirərək metafizikanı və dini inkar etməyə çalışdı. Kommunizm kimi siyasi sistemlər isə "din xalqın tiryəkidir" şüarı ilə milyonlarla insanı ateist dünyagörüşünə məcbur etdi.

Lakin tarixin gedişi bu sistemlərin yanlışlığını sübut etdi. Bu gün biz təkcə keçmiş kommunist ölkələrində deyil, bütün dünyada mənəviyyata və dinə marağın artdığının şahidi oluruq. Qərb ölkələri isə bu prosesi öz maraqlarına uyğun istiqamətləndirməyə çalışır, sekulyar və qeyri-dini mənəviyyat formalarını təbliğ edirlər.

## Anti-Mənəviyyat Fəlsəfələrin Yanlışlığının İsbatı

### Pozitivizm Fəlsəfəsi və Onun Tənqidi

Modernizm dövründə "anti-mənəviyyat" və "anti-din" nəzəriyyələşdirilmişdir. Qərb alimlərinin təbiri ilə desək, bir sıra pozitivistlər Qərb tarixində Vitgenşteynin fikirlərinin və düşüncələrinin təsiri altında "Vyən" toplantısı vasitəsilə və mütaliə mərkəzinin təşkil olunması ilə ən ifrat və ən anti-din fəlsəfə və düşüncə sistemini – "Pozitivizm Fəlsəfəsini" – yaratdılar.

"Vyən halqası" adı ilə tanınan bu qrup qısa müddət ərzində Qərbdə və onun ardınca da dünyanın hər yerində elmi və fəlsəfi fəzanı öz ixtiyarları altına almağı bacardılar. XX əsrin 4, 5 və 6-cı onilliklərində bütün fikir və düşüncə mərkəzlərini özlərinə məğlub etdilər. Saentizm (elmiçilik) pozitivizmin təfəkkürünün əsas cəhəti idi.

### Pozitivizmin Daxili Ziddiyyətləri

Pozitivizm və buna oxşar digər fəlsəfələr sonda sönməyə üz tutdu. Pozitivizmin bəzi müdafiəçiləri və Vyən halqasının üzvləri bu

təfəkkürə elmi tövbələrini ümumi şəkildə elan etdilər və bunun özü anti-din olanlarla mübarizə üçün dindarların əlində münasib silah oldu.

Pozitivizmin fikri əsaslarının yanlışlığı aşkar oldu. Onların düşüncələrinin ən mühüm prinsipi olan "mənalılıq meyarı" bir çoxlarının elmi tənqidlərinə məruz qaldı. Onun ən sadə iradı özü ilə ziddiyyət təşkil etməsi idi: *"Yalnız verifikativ (təcrübə olunan) hökmlərin mənası var"* sözünün özü qeyri-təcrübi (qeyri-verifikativ) bir hökmdür və bu prinsipə əsasən də onun özü mənasız olmalıdır. Mənasız söz ilə də bütün sözlərin və hökmlərin "mənalılıq meyarı"nı təyin etmək olmaz.

Bu sadə məntiqi tənqid pozitivizmin bütün binasını uçurmağa kifayət etdi.

## Anti-Mənəviyyat Sistemlərin Məğlubiyyəti

*Anti-mənəviyyat fəlsəfələrə əlavə olaraq, bu fəlsəfələrin təsiri* altında yaranan bəzi anti-mənəviyyat sistemlər də XX əsrin sonlarında rəsmi şəkildə öz məğlubiyyətlərini elan etdilər.

## Kommunizmin Çöküşü

XX əsrdə dünyanın təqribən yarısı Kommunizmi, Marksizmi seçmişdi. Bu elə bir sistem idi ki, onun ən mühüm cəhətlərindən biri anti-mənəviyyat və anti-din olmaq idi. Kommunizm dini və mənəviyyatı millətlərin tiryəki hesab edirdi və bu tiryəklə mübarizəni özünün mütləq vəzifəsi bilirdi.

Avropada, Asiyada, Amerikada dünyanın yarısı həmin sistemə aşiq idi və özlərinin bütün qədim amal və arzularının ödənməsini bu anti-din sistemdən gözləyirdi. Amma XX əsrin sonlarında dünya xalqları son dərəcə təəccüb və inamsızlıq içində bu sistemin rəsmi şəkildə çökməsinin şahidi oldu.

Kommunizm sistemi XX əsrin 9-cu onilliyində rəsmi şəkildə bacarıqsızlığını və nəticədə də özünün məhv olmasını elan etdi.

Hamı bu həqiqəti başa düşdü ki, bu system xəyali ilğımdan başqa bir şey deyil və bəşəriyyətin həqiqi ehtiyaclarına cavab verməyə acizdir.

## Kommunist Ölkələrində Dəyişikliklər

Kommunist sisteminin süqutu camaatın dinə meyl və istəyinə, mənəviyyat tələbinə yeni bir həyəcan verdi. Bu sistemin boyunduruğundan nisbi müstəqillik və ən azı düşüncə müstəqilliyi qazanan bir çox millətlər yenidən mənəviyyata və dinə meyl hiss etdilər. Onlar bütün varlıqları ilə bu anti-mənəviyyat sistemin çatışmazlığını, zəifliyini duydular.

Hələ də bu sistemlərin rəsmi hakim olduğu Çin, Kuba kimi ölkələrdə artıq din və mənəviyyatla əvvəlki şiddətli müxalifətçilik və kobudluq görünmür. Əksinə, onlar çalışırlar ki, müəyyən həddə bir növ materializm ilə uyğun olan mənəviyyatı yaysınlar. Buna görə də Budda, Hind, Qırmızıdərililər və sekulyar mənəviyyatlarla nəinki müxalifətçilik etmirlər, hətta özləri belə bu cür mənəvi məktəblərə üz tuturlar.

Kubanın kommunist sisteminin rəhbəri Fidel Kastro rəhbərlik müddətinin sonu haqqında deyir: *"Ölkənin idarəçiliyi Allah istəyənə qədər əlimdə olacaq, əvvəlcə Allahın istək və iradəsi və ondan sonra da camaatın istək və iradəsi hər şeydən üstündür."*

Bu etiraf ömrü boyu kommunizm ideyalarını təbliğ edən bir liderin dilindən çıxması baxımından olduqca əhəmiyyətlidir.

## Mənəviyyatçı Qrupların Geniş Təbliğatı

Mənəviyyatçı qrupların geniş, cazibəli təbliğatlarını müasir bəşərin mənəviyyata tərəf üz tutmasının amillərindən biri hesab etmək olar. Hər bir dinin tərəfdarı öz dinlərini tanıtdırmaq və daha çox insan cəlb etmək üçün geniş təbliğat aparır.

## Yəhudi İrfanının Təbliği: Kavala

Təbliğatın bu açıq şəraitində hətta yəhudiyyət də özünü təbliğatdan kənarda qoymur. Yəhudiyyət rəsmi və məşhur dinlər

arasında bəlkə də tarix boyunca heç bir təbliği olmayan yeganə dindir. Çünki özlərini irqi təəssübkeş və bu dini də Bəni-İsrailə məxsus hesab edirlər.

Amma indi müxtəlif qəribə təbliğatlardan istifadə etməklə "Kavala" adında yəhudi irfanının tanıtdırılmasına çalışırlar. Kavala və sionizm rəhbərləri öz səylərini rəmzi şəkildə məşhur simaların və kino, mədəniyyət, idman ulduzlarının, həmçinin sərvətli ailələrin cəlb olunmasına yönəltmişlər.

## İnsanda Fitri və Təbii Meyl

Bəşərin müxtəlif meylləri və "instinkt"ləri var. Filosoflar fəlsəfi "Elmün-Nəfs" mövzularında və aristotelçi əxlaq alimləri tarix boyunca, müasir psixoloqlar isə öz tədqiqatlarında çalışmışlar ki, bəşərin meylləri və instinktləri üçün məlum modellər versinlər və onları müəyyən meyarlarla hissələrə ayırsınlar.

## İnsan Meyllərinin Təsnifatı

Bəşərin bütün meyl və instinktlərini ümumi bir bölgüdə iki hissəyə ayırmaq olar:

## Birinci Qrup Meyllər

Qeyri-ixtiyari və iradi şəkildə həyəcanlanaraq fəallaşan meyl və instinktlər. Onların çiçəklənməsinin təlim-tərbiyəyə ehtiyacı yoxdur.

## İkinci Qrup Meyllər

Çiçəklənməsində və aktivləşməsində bəzi şərtlərin gerçəkləşməsinə ehtiyacı olan meyl və instinktlər.

**Mənəviyyata, dinə, metafizikaya və Allaha olan meyl** o meyllərdəndir ki, çiçəklənməsi və aşkara çıxması üçün bir sıra şərtlərin həyata keçməsinə ehtiyac var. Onun fəaliyyətə düşməsi üçün zəmin yaranmalıdır.

## Fitri Meyllərin Düzgün İdarə Edilməsi

Bütün vücudi sahələrdə daha çox qüdrət əldə etmək meyli, tamamlanma istəyi, mütləq kamala meyl insanın fitri və instinktiv meyllərindəndir. Əgər çiçəklənmiş bu fitri meyllərə düzgün cavab verməsək, sui-istifadəyə çevriləcək, süni şəkildə ödənəcək və nəticədə səadət vasitəsi zəlalət və bədbəxtlik vasitəsinə çevriləcək.

Əgər ona yalan cavab verilsə, bu zaman onların zərəri və xətəri cəmiyyətin dini, əxlaqi sağlamlığı və həqiqi səadəti üçün küfr, anti-mənəviyyat, anti-din zərərindən daha çoxdur.

## Saxta Dini Cərəyanların Təhlükəsi

Xəvaric, Vəhhabilik, Bəhailik kimi din adı ilə və dini pis və yanlış izah edərək nəticə almaqla yaranan azğın və saxta firqələrin dinə xətər və zərəri kafirlərin, kommunistlərin xətərindən daha çoxdur.

Buna əsasən də bütün həqiqət axtaranların, fikir-düşüncə sahiblərinin vəzifəsidir ki, hamıya, xüsusilə də təhqiqatda, axtarışda olan cavanlara həqiqi irfan və mənəviyyatı tanıtdırsın. Bu müstəsna və tarixi fürsət təhlükənin ram olunmaz cilovuna çevrilməməlidir.

## Qərbin Bu Ümumdünya Hərəkatı İstiqamətləndirmək Səyləri

Qərb və Avropa ölkələri bu həssas nöqtəni dərk edərək bu ümumdünya hərəkata öz mənfəətlərinə uyğun yön vermək üçün geniş səy edir, hərtərəfli çalışırlar. Onlar ixtiyarlarında olan növbə-növ vasitələrlə dünyanın hazırkı ab-havasından münasib şəkildə bəhrələnmək üçün müxtəlif metodlardan istifadə edirlər.

## Embriona (Rüşeymə) Mənəvi Məfhumların Ötürülməsi

Genlər və psixoloji inkişaf üzərində aparılan təhqiqatlar bir çox siyasətçilərdə və hakimlərdə ana bətnində rüşeymə təsir göstərməklə onun dini və ictimai düşüncələrinə, maraqlarına, meyllərinə istiqamət vermək ümidini yaratmışdır.

Buna görə də indi bəzi inkişaf etmiş ölkələrdə, o cümlədən Amerikada, elə mərkəzlər təsis olunmuşdur ki, öz nəzərlərindəki dini və əxlaqi məfhumların ana bətnindəki rüşeymə necə ötürülməsi haqqında tədqiqatlar aparırlar.

**İslamın Rüşeym Tərbiyəsinə Baxışı**

Rüşeymin münasib şəkildə tərbiyəsi üçün bu cür tədqiqatların və proqramların hazırlanması İslam və din rəhbərlərinin də diqqət mərkəzində olmuşdur. İslamın əvvəllərində dini rəhbərlər bu həqiqətə təkid etmişlər; yəni inanclı və əxlaqlı nəsilə malik olmaq üçün evlilikdən qabaq övlad tərbiyəsi haqqında düşünülməlidir. Təəssüflər olsun ki, biz bu pak və mütərəqqi düşüncələrdən az istifadə edirik, yaxud ümumiyyətlə bunların praktikiləşdirilməsində proqramlarımız yoxdur və dərin elmi tədqiqat aparmırıq. Amma bu həqiqəti yeni dərk etmiş Qərb alimləri onun elmiləşdirilməsi sahəsində və ondan istifadə etməkdə uzunmüddətli dini, mədəni, ictimai proqramlar hazırlamaqla elmi və akademik səviyyədə çalışırlar!

**Mənəvi Məfhumların Uşaqlara Ötürülməsi Haqqında Tədqiqat**

Uşaqlıq dövründə tərbiyənin əhəmiyyəti heç kimə gizli deyil. Bu dövrdəki tərbiyə həqiqətdə fərdin gələcək şəxsiyyətinin formalaşmasında yüksək həddə təsirlidir:

***Vatsonun Nəzəriyyəsi***

Praktikaya daha çox əhəmiyyət verən psixoloq Vatson iddia edirdi ki, fərdlərin yuxarı yaşlarda seçim və qərarlarının hamısı onların kiçik yaşlarda necə tərbiyə olunmalarının nəticəsidir. Vatson deyirdi: *"Bir neçə sağlam uşağı mənə verin, onları özümə məxsus aləmdə tərbiyə edim və söz verirəm ki, hər birini təsadüfi seçib ona elə bir formada təlim verim ki, istedadlarından, meyllərindən, bacarıqlarından, maraqlarından və valideynlərinin irqindən asılı*

*olmadan istədiyim mütəxəssis olsunlar; həkim, vəkil, incəsənət ustası, iqtisadiyyatçı və hətta səfil və oğru bir fərd."*

***Qərbin Uşaq Tərbiyəsindəki Fəaliyyətləri***

Qərb alimləri mənəvi və irfani məfhumların uşaqlara ötürülməsi haqqında müxtəlif cəhətlərdə və müxtəlif metodlarla fəaliyyət göstərirlər. Uşaqların tərbiyələrdən təsirlənməsinə, uşaqlıq dövrlərindəki təlqinlərə və belə təlimlərin davamlı olaraq qalmasını öyrənməklə bu zəmində heç bir şeyi əsirgəmirlər.

Bizim dini təlimlərimizdə də uşaqlıq və cavan dövrlərdəki dini tərbiyəyə çoxlu təkid olunmuşdur. Amma bu bir həqiqətdir ki, Qərb onu çox gözəl öyrənmiş, bilmiş və ondan lazımi şəkildə istifadə etmişdir.

Uşaqlar üçün yeni oyunların işlənib hazırlanmasının, Qərb mədəniyyəti və sekulyarizmin mənəviyyatı şüası altında çöhrələnmiş gəlinciklər və oyuncaqların hazırlanmasının hamısı Qərbin bu zəmindəki fəaliyyətlərindən biridir.

***Metafiziki və Mənəvi Multfilmlərin Hazırlanması***

Qədim Yunan dövründən müxtəlif alim və filosoflar belə bir mühüm həqiqəti təsdiqləmişlər: "Təlim-tərbiyənin ən mühüm metodlarından biri uşaq oyunları və onların başlarının qarışdırılmasıdır".

***Platonun Oyunlar Haqqında Nəzəriyyəsi***

Platon inanırdı ki, utopiya (kamil ölkə) yaratmaq üçün idarəçilər və hakimlər gərək uşaq oyunlarını onların uşaqlıq dövründən nəzarətdə saxlasınlar. Çünki oyunların vasitəsilə qeyri-hissi şəkildə onların şəxsiyyətlərini, əxlaqi xüsusiyyətləri analiz edib:

1. Gələcək talelərini həll etmək və qüdrətlərini, istedadlarını öyrənmək olar

2. Ehtiyac olduqda onların rəftarlarını, reaksiyalarını da həmin yolla dəyişmək olar

Oyunun növünün fərdlərin əxlaqi baxışlarının dəyişdirilməsində faydalı təsiri ola bilər. Oyunların vasitəsilə onları qədim ənənələrin, inancların dəyişdirilməsi, təhqir olunması yönündə təhrik etmək olar.

Platon deyir: *"Camaat oyunların dəyişdirilməsinə etinasız yanaşır və belə cüzi şeylərin ziyanın mənşəyi ola bilməyəcəyini düşünürlər. Buna görə də çarə axtarmırlar və cavanları azad buraxırlar. Amma bilmirlər ki, oyunlarda yeniliklər edən, onları dəyişən cavanlar öncəkilərdən fərqli şəxslər olacaqlar, başqa həyat axtarışına çıxacaq və digər qanunlara malik olacaqlar, başqa şəkildə formalaşacaqlar."*

### ***Qərbin Multifilmlərdən İstifadəsi***

Qərblilər bu həqiqətdən öz mənafeləri uğrunda çox gözəl istifadə edirlər. Onların bir çox multifilmlər, kino və televiziya verilişlərinin hamısı müəyyən formalarda liberal dəyərlərin gücləndirilməsi yönündə olan fəlsəfələr və düşüncələrdən ibarətdir.

Mənəviyyat və irfan sahəsində bəzi irfani əsaslara söykənərək çoxlu film və multifilm çəkmişlər.

### **Kompüter Oyunları**

Bu gün uşaqlara və cavanlara ən təsirli vasitələrdən biri kompüter oyunlarıdır. Qərblilər də bütün güclə bu vasitədən istifadə edirlər.

### **İrfani Filmlərin Çəkilişi**

Dünyanın ən böyük kinomotoqrafiya mərkəzi "Hollivud" dur. Bəzi məlumatlara görə Hollivud illik 700 film istehsal edir. Bu o deməkdir ki, əgər dünyada hər bir kinomotoqrafiya mərkəzi gündəlik iki yeni film nümayişə çıxarmaq istəsə, Hollivud bunu tək bacarır.

## Hollivudun Mənəvi Filmlərə Yönəlməsi

Son 30 ildə, xüsusilə İran İslam inqilabının qələbəsinin səbəblərinin araşdırılması və şiəçiliyin əsas təlimlərinin (Aşura və Məhdəviyyət) təhlili haqqında 1982-ci ildən təşkil olunmuş "Təl-Əviv" konfransından sonra Hollivudun filmlərinin çox hissəsi "Axirəzzaman" və "Məhdəviyyət" məsələləri haqqındadır.

Hollivud rejissorları öz tamaşaçıları arasında İslama, islami təlimlərə, maarifə və müsəlmanlara nifrətin yaradılması uğrunda mahiranə səy göstərirlər. Onlar tamaşaçılara Hollivudun və özlərinin bəyəndiyi mənəviyyatı təlqin etmək istəyirlər.

60-cı illərdən bu yana Hollivud camaatın mənəviyyata və dinə meylini nəzərə alıb fəaliyyətlərindən böyük bir hissəsini mənəvi və dini filmlərin çəkilməsinə yönəltmişdir.

Statistika: 2003-2004-cü illərdə Hollivud istehsalının 30%-i metafizik, dini və irfani olub.

Əlbəttə, Hollivud mənəvi filmlərin çəkilişində də çalışır ki, mənəviyyatı seks və dava-dalaşla birləşdirsin və sekulyar mənəviyyatı həqiqi islami və dini mənəviyyatın əvəzinə təqdim etsin! Bu elə bir aləmdir ki, bu aləmdə cadugərlər və sehrbazlar camaatın həqiqi xilaskarı kimi tanıtdırılır.

## Fantastik (Xəyali) Roman və Dastanların Yazılması

Qərb mədəniyyəti proqramlarını hazırlayanlar ədəbi mətbuat informasiya vasitələrinin cavanların düşüncələrini və zehinlərini yönləndirmək cəhətindəki rolundan xəbərsiz deyil. Onlar millətlərin mədəniyyət və düşüncə tərzinin formalaşdırılmasında, yönləndirilməsində roman və dastanın rolunu çox gözəl dərk edirlər.

## "Heri Pater" Dastanları

"Heri Pater" dastanlarının yazılması və geniş təbliği, uşaqların, cavanların bu dastanları susamışcasına oxumaları, onun dastanları

əsasında çəkilmiş filmlərin yayınlanması diqqət olunmalı nöqtədir. Bir yazıçının təbiri ilə desək: *"Əgər Heri Pater dastanında kimin öldüyünü bilmək istəyirsinizsə, bunun cavabı asandır: yəni 'Allah'dır."*

**Cadugərliyin Qüdsiləşdirilməsi**

Bu romanın əsas mövzusu cadu və sehrdir, yəni dinlərin və peyğəmbərlərin (ə) məzəmmət etdiyi iki fenomen. Amma bu romanda bu iki şey qüdsiləşdirilir. Bu roman açıq şəkildə əxlaqın nisbi olduğunu təbliğ edir.

Heri həqiqətdə dünyanı xilas edən bir sehrkardır! Halbuki indiyə qədər sehrkarların camaatı azdırmaq, onlara yalan demək, ixtilaflar və bədbəxtlik yaratmaqdan başqa işləri olmayıb.

**"Hədəf Vasitəni İzah Edir" Təfəkkürü**

Burada tam olaraq "Hədəf vasitəni izah edir, təyin edir" təfəkkürü təbliğ olunur. Həqiqi və xəyali düşmənlərə qarşı kin-küdurət, təkəbbürlük etmək, pis düşüncələr və istəklərin hamısı müqəddəsləşdirilir. Bu məqsədlə də yalan, məkr, hiylə, xəyanətin də icazəli olduğu göstərilir.

**Ci Rolinqin Homoseksualizm Təbliği**

Bu xəyali dastanların yazarı xanım Ci Rolinq bir müsahibədə elan etdi ki, Heri Pater dastanının qəhrəmanı hamcinsbazdır və bununla da o öz dastanının qəhrəmanının populyarlığı ilə oxucuları homoseksualizmə sövq edir. Bu da Qərb və Avropa valideynlərinin çoxunun etirazına səbəb oldu.

**Nəticə**

XX əsr anti-mənəviyyat fəlsəfələrin və sistemlərin yüksəlişi və çöküşünün şahidi oldu. Pozitivizm kimi fəlsəfi cərəyanlar öz daxili ziddiyyətləri səbəbindən məğlub oldu. Kommunizm kimi

siyasi sistemlər isə insan fitrətinə zidd olduqları üçün tarixin zibilliyinə atıldı.

Bu gün biz dünyada mənəviyyata və dinə marağın artdığının şahidi oluruq. Hətta keçmiş kommunist ölkələrinin rəhbərləri belə dinin əhəmiyyətini etiraf edirlər. Fidel Kastronun "Allahın istəyi"ndən danışması, Vladimir Putinin Ortodoks kilsəsi ilə fəxr etməsi bunun bariz nümunəsidir.

Lakin Qərb ölkələri bu prosesi öz maraqlarına uyğun istiqamətləndirməyə çalışırlar. Onlar:

1. **Rüşeym tərbiyəsi** sahəsində tədqiqatlar aparırlar
2. **Uşaq tərbiyəsində** yeni metodlar işləyib hazırlayırlar
3. **Multifilm və filmlərlə** sekulyar mənəviyyatı təbliğ edirlər
4. **Kompüter oyunları** vasitəsilə İslama qarşı nifrət yaradırlar
5. **"Heri Pater"** kimi dastanlarla Allahsız mənəviyyatı yayırlar

Bütün bunlar qarşısında həqiqi mənəviyyatı və İslam dəyərlərini qorumaq, gənc nəsli bu təhlükələrdən xəbərdar etmək hər bir müsəlmanın və həqiqət axtaranın vəzifəsidir.

İnsanın fitri mənəvi ehtiyacları var. Bu ehtiyaclar düzgün cavablandırılmasa, saxta mənəviyyatlar və azğın cərəyanlar meydana çıxır. Xəvaric, Vəhhabilik, Bəhailik kimi saxta dini cərəyanların zərəri kafirlərin zərərindən daha çoxdur. Çünki onlar din adı ilə insanları yoldan çıxarırlar.

Buna görə də biz gənc nəslə həqiqi İslam mənəviyyatını öyrətməli, onları Qərbin mədəni təcavüzündən qorumalı, öz dəyərlərimizə bağlı yetişdirməliyik. Yalnız bu yolla biz bu tarixi fürsəti qoruya və bəşəriyyəti həqiqi xoşbəxtliyə yönəldə bilərik.

**Xülasə**

- **Pozitivizm** – Anti-din fəlsəfə, öz daxili ziddiyyəti səbəbindən çökdü
- **Kommunizm** – Anti-mənəviyyat sistem, insan fitrətinə zidd olduğu üçün məğlub oldu
- **Mənəviyyata maraq** – XX əsrin sonlarından artmağa başladı
- **Kastro və Putinin etirafları** – Kommunist liderlərin dinə münasibəti dəyişdi
- **Kavala** – Yəhudi irfanı, məşhurlar vasitəsilə təbliğ olunur
- **Rüşeym tərbiyəsi** – Qərbin yeni tədqiqat sahəsi
- **Vatson nəzəriyyəsi** – Uşaq tərbiyəsinin əhəmiyyəti
- **Platonun oyun nəzəriyyəsi** – Oyunların şəxsiyyət formalaşmasında rolu
- **Hollivud** – İllik 700 film, 30%-i mənəvi-dini
- **Heri Pater** – Allahsız mənəviyyat, cadugərliyin qüdsiləşdirilməsi

**Ədəbiyyat**

Qurani-Kərim – A. Mehdiyevin tərcüməsi, Bakı, 2009
Plato, "Dövlət" (Respublika)
Vatson, Con B., "Davranışçılıq"
Vitgenşteyn, Lüdviq, "Məntiqi-Fəlsəfi Traktat"
Vyən Halqasının Manifesti – 1929
Popper, Karl, "Açıq Cəmiyyət və Onun Düşmənləri"
Durant, Vil, "Sivilizasiya Tarixi"
Fukuyama, Frensis, "Tarixin Sonu"
Hantinqton, Samuel, "Sivilizasiyaların Toqquşması"
Rolinq, C. K., "Heri Pater" dastanları
Hollivud və Mədəni İmperializm – müxtəlif məqalələr
Mütəhhəri, Mürtəza, "İnsan və İman", Tehran
Cəfəri, Məhəmmədtağı, "Müasir Qərb Fəlsəfəsi", Qum
Misbah Yəzdi, "İslami Məktəblərin Tənqidi", Qum
İslam İnqilabı Sənədləri – müxtəlif nəşrlər